# QARABAĞ ƏRAZİSİNDƏ YAYILAN ƏDVİYYAT VƏ YABANI TƏRƏVƏZ BİTKİLƏRİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

**Məcid Adıgözəlov, Sevda Adıgözəlova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, m.adigozalov62@gmail.com*

Respublikamızın ərazisində yayılan 770-dən artıq ədviyyat və yabanı yeməli tərəvəz növlərinin çoxuna Qarabağ ərazisində təsadüf olunur.

Qarabağ ərazisində kserofit və dağ-kserofit tipində geniş yayılan, dərman və qida xarakterlı yabanı tərəvəzlərdən biri qırxbuğumdur. Qırxbuğum (yolotu, xırmanotu) Qırxbuğumkimilər fəsiləsinə (Polygonaceae Juss) aiddir. Dunya florasının tərkibində 200-ə qədər, Qafqazda 40, o cümlədən Azərbaycanda 27 növünə rast gəlinir. Qırxbuğum növlərinin əksəriyyəti dərman, boyaq və aşı xüsusiyyətli, o cümlədən qida və yem əhəmiyyətlidir. Bunlardan bir neçə növ, həmçinin Qarabag ərazisində yayılan dağ qırxbuğumu – *Polygomum alpestre* C.A.Mey. və quş qırxbuğumu *Polygomum aviculare* L. vacib tərəvəz bitkiləri hesab edilir.

Çoxillik dağ qırxbuğumu həm toxumla, həm də kökümsov gövdələrlə, quş qırxbuğumu isə toxumla artırılır. Səpin 1-10.IX və 1-10.III-da 5-cərgəli lent üsulunda 50x20x4 sm sxemi ilə aparıla bilər. Seyrəltmə zamanı cərgəarası 5-7 sm məsafə saxlanılır.